

Sahibə SULTAN

# Yuxumda Təbrizi gördüm…

Bu gecə yuxumda mən,
Gözəl Təbrizi gördüm.
Təbriz demə nə Təbriz,
Şəhərlər icərisində
Şahənşah şəhər gördüm.
İnsanları harasa,
Mən tələsən gördüm.
Gah sağa gedən gördüm,
Gah sola gedən gördüm.
Onlar yollar axtarır,
Bu yol haqqın yoludur.
Bu yol Vətən yoludur.
Təbriz bu yolun üstə,
Durub yolçu gözləyir.

Yol gözləyən Təbrizim
Yorulsa, usansa da,
Gözləri saralsa da,
Təbriz bu yolun üstə
Durub yolçu gözləyir.
Təbriz də yuxu görür,
Qarmaqarışıq səslər,
Şahə qalxan kəhərlər,
Qılınc qaldıran ərlər,
Döyüşən mərd igidlər,
Onlar da yol gözləyir,
Təbriz qaynayır daşır,
Yolda ruhlar dolaşır.
Onlar da yol gozləyir,
Ağacdan asılmışlar,
Vətəni satılmışlar,
Haqqı tapdalanmışlar,
Onlar da yol gözləyir.
Təbriz bu yolun üstə
Durub yolçu gözləyir.

# Vətənim

Can içində sən canımsan, Vətənim.
Qəlbimin tək sultanısan sən, Vətənim.
Səndən ötrü can verib can aldı igidlər,
Toysuz igidlərin toy, büsat yeri Vətənim.
Yüz minlərlə həsrət gözlər səni gözlər,
Həsrət qalan gözlər sənə qurban, Vətənim.
Şuşa, o namus qalası pakdan da pakizə
Murdar düşmənlərə yurd ola bilməz, Vətənim.
Sən yaralı, sinən Təbriz dağlıdır.
Yaralı şəhidləri al qoynuna, Vətənim.
Xankəndi xan babamın yurdudur.
Tülkü aslan yuvasında yata bilməz, Vətənim.

# Yeni dönüş

Ana yurdum, kimlər gəlib kecdi səndən,
Sən tarixin yaratdığı bir varlıqsan.
Sinəsini torpağına sipər edən
İgidlərin anasısan…
Zəkasıyla, öz elmiylə,
Dünyaya işıq saçan,
Alimlərin anasısan.
Hər bir qarış torpağını,
Bülbül gülə vurğun kimi,
Vəsf eyləyən sairlərin anasısan.
Taixlərə dastan açan,
Fatehlərin, xaqanların,
Tomrislərin, Heydərlərin anasısan.

Zəkası qılınc tək iti,
Qolları şir biləkli,
Türk oğlu, türk anasısan.
Günlərin bir günündə
Qədim oğuz elində,
Naxçıvan bölgəsində,
Zəhmətkeş ailəsində,
Dünyaya gəldi Heydər.
Özü sadə olsa da
Adı Şah Xətainin
Heydər soyundan gəldi.
Adı Peyğəmbərlərimizin
Heydər nəslindən gəldi.

Hec kimdən seçilmədi,
Sadə həyatı ilə
Yalnız seçilirdi o,
Ağlı, zəkasi ilə.
Qartal baxışı ilə,
Siyasət meydanına
Qədəm qoymuşdu artıq.
Siyasi görüşlərdə həmişə
Şah olurdu, dünyanı mat qoyurdu.
Bəzən susub durardı,
Kəskin baxəşlarıyla,
Vüqarlı duruşuyla
Sözünü qandırardı.

Xalqla görüşlərində,
Çox səmimi olardı,
Üzündən nur yağardı
Danışardı, gülərdi,
Naxcıvan ləhcəsində,
Şirin söhbət edərdi.
Xalq sevərdi rəhbəri,
Onunla qürur duyardı,
Ona arxa durardı.
Heyder baba bilird
El gücü sel gucudur,
Xalqa arxalanırsa,
Demək daha güclüdür.

20 Yanvar günü,
Xalqın qətliam günü,
Haqq səsini ucaltdı.
Kommunist biletini
Cırıb nifrətlə atdı.
Yenə yuxusuz günlər,
Açıq-gizli döyüşlər,
Siyasətlər, gedislər,
Zəiflər və güclülər.
Yenə döyüş başladı,
Azad Azərbaycan üçün
Böyük dönüş başladı.

Azad Azərbaycan.- 2023- cü il.- 2 noyabr.- №- 36.- S. 3.